# Şərtləri İlham Əliyev diktə edir

## Heç bir qüvvə Azərbaycanın qərarına təsir edə bilməz



**Azərbaycanın suverenliyinin tam təmin edilməsini şərtləndirən 23 saatlıq antiterror əməliyyatlarından sonra Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində yaranan yeni reallıqlar göstərir ki, məğlub ölkənin barışdan başqa çıxış yolu yoxdur. İndi tərəflər davamlı sülhün əldə edilməsi üçün bütün səylərini səfərbər etməlidirlər.**

Sülh danışıqlarında isə Avropa İttifaqı və Rusiya vasitəçilik missiyasını həyata keçirir. Bu istiqamətdə növbəti görüşün oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilməsi gözlənilirdi.

Hətta sentyabrın 26-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, onun diplomatik müşavirləri Saymon Mordyu və Maqdalena Qrononun rəhbərliyi ilə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında keçirilən görüşdə bu məsələ ətrafında müzakirələr aparılmışdı.

Sülh müqaviləsinin bağlanmasında Prezident İlham Əliyev hər zaman konstruktiv mövqe nümayiş etdirib və Azərbaycanın sülhə hazır olduğunu dəfələrlə bəyan edib. Sülh müqaviləsi yalnız Azərbaycanın irəli sürdüyü şərtlər əsasında bağlana bilər. Eyni zamanda Ermənistan rəhbərliyi də Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir neçə dəfə bəyan edib.

Bu gün Qranadada keçirilməsi nəzərdə tutulan görüş isə baş tutmayacaq. Bunun səbəbi isə Türkiyənin bu danışıqlarda iştirakına icazənin verilməməsidir. Çünki Azərbaycan görüşdə Türkiyənin iştirakını təklif etmişdi. Amma Ermənistanın "böyük bacısı" Fransanın və son zamanlarda terrorçuların müdafiəsinə qalxan Almaniyanın "işbirliyi" nəticəsində qardaş ölkənin danışıqlarda iştirakına mane yaradıb.

Artıq görünən odur ki, sülh danışıqlarında da Azərbaycana qarşı çirkin kampaniya aparmaqla nəyəsə nail olmağa çalışırlar. Bu prosesdə Fransanın oyunlarını dünya açıq şəkildə görməkdədir. Son "bəyanatlar", Ermənistana təşkil edilən səfərlər, məğlub ölkəni silahlandırmaq həvəsi və hətta özünü "ədalətli" vasitəçi kimi aparan Aİ Şurasının prezidenti Şarl Mişelin ölkəmizi ittiham edən əsassız bədnam açıqlamasına, əlbəttə ki, Azərbaycanın reaksiyası belə də olmalı idi.

Ən əsası odur ki, bu gün qalib sərkərdə kimi şərtləri də İlham Əliyev diktə edir və Azərbaycan Prezidenti regiondan uzaq ölkələrlə bölgənin problemlərini müzakirə etməyə lüzum görmür. Çünki sülhlə bağlı məsələlər yalnız regional çərçivədə müzakirə və həll edilə bilər.

Lakin bu, o demək deyil ki, Azərbaycan ümumilikdə sülh danışıqlarından imtina edir. Qalib ölkə yalnız əvvəlki Aİ-Azərbaycan-Ermənistan üçlü formatda keçiriləcək görüşdə iştirak edə bilər və bundan heç vaxt da imtina etməyib.

Bu, Azərbaycanın qərarıdır və bu yolda heç bir qüvvə regionun lider dövlətinin qərarına təsir edə bilməz. Çünki Azərbaycan haqlı və güclüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.6.